Elm .- 2025.- 31 yanvar(№4).- S.6.

YENİ NƏŞRLƏR

# AMEA-nın müxbir üzvü Surxay Əkbərovun biblioqrafik göstəricisi

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının (MEK) tərtibatında AMEA-nın müxbir üzvü Surxay Əkbərovun elmi fəaliyyətinin biblioqrafik göstəricisi işıq üzü görüb.**




AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Surxay Əkbərovun biblioqrafik göstəricisi AMEA Rəyasət Heyətinin qərarına əsasən alimin 70 illiyinə həsr olunub.

Burada 1981-2024-cü illəri əhatə edən 527 mənbə toplanılıb. Göstəriciyə alimin həyatının əsas tarixləri, ictimai və elmi-pedaqoji fəaliyyəti haqqında qısa oçerk daxil edilib. Həmçinin S.Əkbərovun müəllifi olduğu kitabları, dövri və ardı davam edən nəşrlərdə, elmi seminar və konfrans materiallarında, nüfuzlu elmi jurnallarda nəşr olunmuş məqalələri daxil edilib. Alimin elmi rəhbəri və məsləhətçisi olduğu dissertasiya işləri haqqında mənbələr müvafiq bölmələrdə qruplaşdırılıb.

Biblioqrafik göstəricinin elmi redaktoru MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov, tərtibçisi Elmi biblioqrafiya sektorunun rəhbəri Nərgiz Novruzova, redaktorları Biblioqrafiya şöbəsinin rəhbəri filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva və şöbənin əməkdaşı Mahnur Həsənovadır.